Ədalət.- 2020.- 8 oktyabr. S. 8.

# "Şanlı ordumuz düşməni susdurur"

**”Hər kəsə məlumdur ki, Ermənistan havadarlarının köməkliyi ilə torpaqlarımızı işğal edib. Azərbaycan xalqı sülhsevərdir, müharibə istəmir, fəqət azğın düşmən torpaqları qaytarmaq fikrində deyil. Ermənistan nə BMT-nin 4 qətnaməsinə əməl edir, nə də tarixi torpaqlarımızı geri qaytarır. Sülh danışıqlarına gəlmir, mütəmadi olaraq atəşkəsi pozur. Artıq xalqın səbr kasası daşıb. İnanıram ki, Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında bütöv Qarabağımızı işğaldan azad edəcəyik. Hər gün doğma torpaqlarımızın bir hissəsi yadelli işğalçılardan geri alınır”.**

Bu sözləri ”Ədalət” qəzetinə açıqlamasında filologiya elmləri doktoru, professor Vüqar Əhməd söyləyib:

”27 sentyabr tarixində ermənilərin atəşkəsi pozması nəticəsində əks-hücum əməliyyatı başladı. Bu 2-ci Qarabağ savaşıdır. Şanlı ordumuz düşməni susdurur. Şərəfsiz ermənilər isə beynəlxalq hüquq normalarına riayət etməyərək, hətta beynəlxalq hüququ kobud şəkildə pozaraq mülki əhalimizə müxtəlif növlü silahlardan istifadə etməklə atəşlər açır, günahsız insanları öldürürlər. Bunlar böyük cinayətlərdir. Azərbaycan ərazisinə raketlərdən atəş açılması müharibə cinəyətidir. Törətdikləri əməllər erməni vandalizminin mahiyyətini izah edir. Baxın, saymaqla bitməyən yüzlərlə erməni cinayətləri var. Xocalı soyqırımı bu cinayətlər arasında ən böyüyüdür. İnsanlığa, bütövlükdə humanizmə sığmayan Xocalı soyqırımı beynəlxalq cinayətdir.



1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 A saylı qətnamə ilə qəbul edilmiş ”Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar” konvensiyası, Nürnberq Hərbi Tribunalının Nizamnaməsi, Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (4-cü maddə), Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (1-ci maddə) Xocalı soyqırımının beynəlxalq hüquq tərəfindən soyqırım cinayət aktı kimi tanınmasının hüquqi əsaslarını formalaşdırır.

Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında nələr etməyiblər?! Bu torpaqlar bizə məxsusdur. Amma onlar orada bizim mədəniyyət abidələrimizi, məscidlərimizi, məktəblərimi dağıdıblar, məhv ediblər. Bunların hər biri cinayətdir.

İnanırsınız, Qarabağı tez-tez yuxularımda görürəm. Bir dəfə yuxularımdan birini də qələmə almışdım:

*”Şuşanı yuxumda gördüm dün gecə,*
*Şəhərim bərbaddı, İlahi necə?!*
*Gecəykən röyada gündüz, həm gecə,*
*Cənnət bağındayam-Qarabağdayam”.*

**Allah Azərbaycan ordusunu var eləsin. Allah Cənab Prezident İlham Əliyevi qorusun. Cənab Prezidentin düzgün və uğurlu siyasətinin nəticəsində Azərbaycan bu gün öz torpaqlarını geri alır. Haqq bizimdir. Cənab Prezident İlham Əliyev demişkən: ”Qarabağ bizimdir, Qarabağ Azərbaycandır”.**

**Rövşən Tahir**